# ELEKTRON KATALOQLAR HAQQINDA MÜLAHİZƏLƏR

Dünya dövlətləri ilə təhsil, elm və mədəniyyət sahəsində geniş əlaqələr yaranmağa başlanmışdır. Azərbaycanın bir çox istedadlı gəncləri xarici ölkələrin ali məktəblərində təhsil alır, elm ocaqlarında yaradıcılıq işləri aparır, bəşəri bilikləri, qabaqcıl təcrübələri öyrənirlər. İnformasiya vasitələrindən, dövri mətbuatdan, kitabxanalardan və s. istifadə etməyə böyük ehtiyac yaranmışdır.

Bu vəzifələrin yerinə yetirilməsində, həmişə olduğu kimi, yenə də kitabxanalar, onların soraq biblioqrafik aparatı (SBA) mühüm rol oynayır.

Müstəqilliyimizin möhkəmləndiyi, iqtisadi sahələrdə mühüm islahatların həyata keçirildiyi, bazar iqtisadiyyatına keçidin reallaşdığı bir şəraitdə kitabxanaların işinin yaxşılaşdırılması, kitab fondunun zənginləşdirilməsi, müasir dövrün tələblərinə cavab verən soraq biblioqrafik aparatın, xüsusilə elektron kataloqların və dünya internet sisteminə qoşulmağın, inkişaf etmiş ölkələrin kitabxanaları ilə əlaqələrin yaradılması, onların kitab fondlarından oxucuların istifadə etməsi və sorğuların təmin edilməsi, bazar münasibətləri sistemində kitabxanaların yeri və rolunun müəyyənləşdirilməsi böyük əhəmiyyət kəsb edir. Bununla əlaqədar olaraq müasir şəraitdə mütəxəssis oxucularımıza kitabxana xidmətinin yeni tələblərə uyğun təşkil edilməsinə, kitabxana işinin avtomatlaşdırılmasına, elektron kataloqların yaradılmasına olduqca böyük ehtiyac yaranmışdır.

Kitabxana xidmətinin səmərəliliyinin artması, onun təkmilləşdirilməsi, kitabxana işi proseslərinin təşkilində elmi yeniliklərdən və dünyanın qabaqcıl təcrübələrindən yaradıcılıqla istifadə etməyi tələb edir. Çünki mənəvi xidmət üsullarının çoxu artıq bugünki oxucuların tələbini ödəmir. Ona görə də müasir dövrdə kitabxanaların avtomatlaşdırılması, elektron kataloqların yaradılması, ümumiyyətlə, kataloqlaşdırma problemləri bütün dünya mütəxəssislərinin diqqət mərkəzinə çevrilmişdir. Belə ki, kompüter texnologiyasının inkişafı şəraitində informasiya mübadiləsinin həll edilməsi bilavasitə onlardan asılıdır. Bu problem xüsusən "Beynəlxalq və milli kataloqlaşdırma: bu gün və gələcəkdə" adlı beynəlxalq konfransda (1999-cu il aprel ayı) nəzərdən keçirilmişdir. Kataloqlaşdırma qaydaları bütün ölkələrdə əsas normativ sənəd hesab olunur və biblioqrafik qeydlərin formalaşmasının mühüm tərkib hissəsini təşkil edir.

Hazırda MDB ölkələrində mürəkkəb vəziyyət yaranmışdır: onlar da müstəqil milli kataloqlaşdırma qaydaları olmadığına görə iki seçim prinsipi qarşısında qalmışlar. Belə ki, onlar ya kataloqlaşdırmada başladıqları Rusiya qaydalarını davam etdirməlidirlər, ya da İngilis-Amerika qaydalarını qəbul etməlidirlər. Bu eynən bizim respublikamızın kitabxanalarına da aiddir. Əgər ikincisini qəbul etmək məqbuldursa, onda gecikmək lazım deyil.

Müasir dövrdə elektron kataloqların təşkili olduqca aktuallıq kəsb edir. Bu sahədə elektron kataloqlar informasiya sisteminin növ müxtəlifliyindən biri kimi kitabxanalararası avtomatlaşdırılmış əlaqələrin yaradılmasında və istifadə edilməsində mühüm rol oynayır. Belə ki, elektron kataloqların internetdə tətbiq edilməsi təkcə tələbatçı biblioqrafik informasiyanı istənilən vaxtda, istənilən yerdən almaqla kifayətlənmir, eyni zamanda müxtəlif kitabxanalarda mövcud olan külli miqdarda qiymətli nəşrlərlə tanış olur.

Dünya praktikasında elektron kataloqların bir sıra inkişaf ənənələri nəzərə alınmışdır: bura müxtəlif axtarış növlərinin çoxalması, indeksli fayllardan (bütün yazıların indeksləşdirilməsi), qeyri-məhdud miqdarda istifadə edilməsi, qeydləri əhatə edən normativ faylların və bu sahədə beynəlxalq əlaqələrin formalaşması, ənənəvi kataloqların maşınla oxunan formaya çevrilməsi, praktiki olaraq bütün kataloqların internetə verilməsi və ondan müxtəlif şəbəkələrdə axtarışı və istifadə edilməsi daxildir.

Elektron kataloqlarında sənədlər haqqında məlumatın toplanması, hər hansı sənədə dair lazımi informasiyanın tələb olunan şəkildə tələbatçıya çatdırılması təmin edilir.

Məlumatlar aşağıdakı şəkildə əks etdirilir:

Müəllif (o cümlədən müştərək müəllif, kollektiv müəllif, tərtib edən və s.);

Sərlövhə (o cümlədən, oxşar sərlövhə, seriyanın sərlövhəsi, digər sərlövhə, açar sərlövhə, xüsusi sərlövhə, ümumi sərlövhə və s.);

Açarlı söz (açarlı söz imkan verir ki, kitabxana fondunda mövcud olan informasiya ehtiyatlarının axtarışını maksimum dərəcədə təmin etsin);

Predmet rubrikaları;

Təsnifləşdirmə indeksi;

Nəşr yeri, nəşriyyat və nəşr tarixi;

Sənədin saxlanma yerinə görə;

Kitabın beynəlxalq standart nömrəsi (İSBN);

Seriyalı nəşrlərin beynəlxalq standart nömrəsi (İSSN).

Elektron kataloqlar dünya kitabxanalarının internet vasitəsilə yayılan əsas informasiya mənbəyidir. Elektron kataloq olmadan kitabxanada kompüter əsasında tətbiq edilən bütün işlərin xarakteri dar məna daşıyacaqdır. Elektron kataloqlarına malik olan kitabxana öz fondunu daha geniş şəkildə əks etdirə bilər, geniş oxucu-tələbatçıların nəzərinə çatdıra bilər, bütünlükdə kitabxana sisteminin ümumi səviyyəsinə və keyfiyyətinə fəal təsir göstərə bilər. Onu da qeyd etmək yerinə düşər ki, elektron kataloqlar dünya miqyasında təkcə bir kitabxana daxilində axtarışı məhdudlaşdırmır. Oxucu-tələbatçı eyni zamanda ona lazım olan informasiyanın axtarışını digər kitabxanalarla əlaqəli şəkildə apara bilər, istədiyi materialı əldə edər, mütaliə dolğunluğu yaradar. Buna görə də respublikamızda elektron kataloqların yaradılmasına mühüm ehtiyac duyulur. Daha doğrusu ənənəvi kataloqlarla yanaşı elektron kataloqları təşkil edilməli, onun vahid sistemi yaradılmalı, formalaşdırılmalı, bütün ərazi, hətta bütünlükdə ölkə kitabxanalarının fondlarını əhatə etməli və onları internetə təqdim etməlidir. Burada toplu elektron kataloqların təşkili xüsusi rol oynayır. Toplu elektron kataloqlar dedikdə konkret region, rayon, şəhər, vilayət, respublika miqyasında külli miqdarda sənədləri özündə əks etdirən ən zəngin sorğu, axtarış, informasiya mənbələri nəzərə alınır. Toplu elektron kataloqların müasir texniki təminatını nəzərə alaraq onlar yüksək operativlik xarakteri daşıyır və kitabxananın ən başlıca vəzifələrindən biri olan xidmət işini səmərəliləşdirir, kitabxana fondundan operativ istifadəni təmin edir. Məhz buna görə də toplu elektron kataloqların respublikamızın kitabxanalarında yaradılması ən mühüm vəzifələrdən birini təşkil edir.

Ümumiyyətlə, toplu elektron kataloqların yaradılması həmçinin müasir cəmiyyətin bütünlükdə və onun ayrı-ayrı üzvlərinin informasiya tələbatının, effektiv təminatının maksimum ödənilməsi üçün mühüm şərait yaradır. Toplu elektron kataloqlar vasitəsilə oxucu hər bir kitabxanadan ona lazım olan ədəbiyyat haqqında məlumatı əldə edə bilər. Bundan başqa toplu elektron kataloqlardan sənədlərin əlaqəli şəkildə tipli kataloqlaşdırılmasında, fondların qarşılıqlı komplektləşdirilməsində, konkret kitabxananın tematik istiqamətinin qiymətləndirilməsində, xarici nəşrlərin təkrar əldə edilməsinin aradan qaldırılmasında istifadə edilir.

Vahid (respublika üzrə) toplu elektron kataloqların yaradılması sistemi və yığcam optik disklərin təşkili regionda kitabxana fondlarını tam özündə əks etdirəcəkdir. Toplu elektron kataloq sistemi kitabxananın xidmət sahəsində, həmçinin məlumat-biblioqrafiya işində mühüm rol oynayır, ölkə daxilində və xarici ölkələrdə mövcud olan ən lazımlı ədəbiyyatı oxuculara çatdırmağa əsas təsir göstərir.

Dünyanın görkəmli kitabxanaşünasları belə qərara gəlmişlər ki, region (milli) retrospektiv toplu kataloqların (xüsusən nadir kitablar, əlyazmalar, dövrü və nəşri davam edən materiallar) yaradılması təkcə informasiya ehtiyatlarının istifadəetmə miqyasını genişləndirmək məqsədi daşımır, həmçinin ədəbiyyatın təminatı ilə onun tələbatçısı arasında baş verən nöqsanları aradan qaldırır.

Lakin xarici mütəxəssislər belə hesab edirlər ki, toplu retrospektiv elektron kataloqların yaradılması çox mürəkkəb, zəhmət tələb edən ağır işdir. Təcrübə göstərir ki, kataloqlaşdırmanı düzgün dərk etmək və mənimsəmək, ənənəvi kataloqların elektron kataloqlara uyğunlaşdırılmasını təmin etmək bilavasitə toplu elektron kataloqların formalaşmasının əsasını təşkil edir. Hər bir kitabxanada yüksək keyfiyyətli retrospektiv elektron kataloqların yaradılması bilavasitə gələcəkdə toplu elektron kataloqların kütləvi təşkili üçün mühüm şərait yaradar. Bu cəhəti nəzərə almadan toplu elektron kataloqların formalaşması haqqında müsbət fikir söyləmək olmaz.

Respublikamızda gələcəkdə toplu elektron kataloqların yaradılması və istifadə edilməsi kitabxana xidmətinin müvəffəqiyyətlə həyata keçirilməsinə mühüm imkan yaradacaqdır. Lakin ənənəvi kataloqların elektron kataloqlarına keçirilməsi səmərəliliyini bilavasitə digər kitabxanalarla əlaqələndirmədən, mərkəzi kataloqlaşdırma tərəfindən metodik rəhbərliyi təmin etmədən mümkün deyildir.

Kitabxanalarda yeni kompüter texnologiyasının və maşınla oxunan informasiyanın meydana gəl-

məsi müasir dövrün ən güclü çağırışına çevrildi və bu da kitabxanaçılar qarşısında ciddi vəzifələr qoydu. Hal-hazırda dünya kitabxanaçıları çalışırlar ki, mühəndislərlə daha sıx əlaqə yaratsınlar, qarşıda duran məsələləri dəqiq həll edə bilsinlər. Yəni kitabxanaçılar professional biliklərini mükəmməl bilməklə yanaşı yeni texniki vasitələrlə də işləmək bacarığına yiyələnməlidirlər.

Elektron ehtiyatların kataloqlaşdırma məsələlərinə yanaşma problemi göstərir ki, ənənəvi kataloqlaşdırmada biblioqrafik təsvirin bütün sahələrini, habelə onun ayrı-ayrı ünsürlərini əhəmiyyətinə görə seçmə yolu ilə vermək həmişə mümkün deyildir.

Elektron ehtiyatların (materialların) müxtəlif tipli olmasına baxmayaraq onları ümumi cəhətlər birləşdirir. Bu da sənədin sərlövhəsi, müəllifi, nəşri, nəşr tarixi, mətni, şəkilləri və sairələrlə (elektron və qeyri elektron) əlaqələri ilə bağlıdır. Başqa sözlə, kataloqlaşdırma üçün nəzərdə tutulan bütün ölçülərin mövcudluğu əsas götürülür. Lakin bir çoxları elektron ehtiyatların biblioqrafik təsvirinin aparılmasında çətinlik çəkirlər.

Bu proses 1960-1970-ci illərdə audio və video materiallarının təsvirində və ənənəvi kataloqlaşdırma sahəsində də çətinlik yaradırdı.

Buna oxşar bir vəziyyət elektron ehtiyatlarının uçotunda da baş vermişdi. Kitabxanaçılar yeni tipli informasiyanın kataloqlaşdırılması prinsipinə, yəni elektron ehtiyatlarının uçotunu aparmağa başlamışlar. Burada təkcə sənədlər haqqında biblioqrafik informasiya deyil, həmçinin sənədin mətni haqqında da məlumat verilir.

Kitabxana şəbəkələrində elektron ehtiyatlarının kataloqlaşdırma problemləri daha mürəkkəb xarakter daşıyır. Elektron ehtiyatlarının təkcə əldə edilməsi, yerləşdirilməsi, internetə verilməsi deyil, həm də bütün informasiyanın həcminə görə kataloqlaşdırılmasını nəzərə almaq lazımdır. Bunsuz bütün sənəd-informasiya ehtiyatlarının kataloqlaşdırılması mümkün deyildir. Bu da bir sıra sənədlərin işlənmə və istifadəetmə məhdudluğuna səbəb olur. Buna görə də elektron informasiya kütləsini düzgün müəyyənləşdirəcək iki cəhəti: elektron ehtiyatlarının kataloqunun yaradılması və internetə verilən kataloq ehtiyatlarının təşkilini xüsusi nəzərə almaq lazımdır.

Beynəlxalq standarta əsasən elektron ehtiyatlarının biblioqrafik təsviri bilavasitə sənədlərin vahid təsvir metodikasına əsaslanır.

Audiovizual sənədlərin kataloqlaşdırılması daha çox elektron ehtiyatların xarici və daxili tərtibatından, qeydetmə obyektindən asılı olaraq "internet" üçün standart hazırlanmalıdır. Əgər ənənəvi kitabların təsvirinin mənbəyi titul vərəqi hesab olunursa, elektron ehtiyatların təsvirinin mənbəyini onun xarici tərtibatı təşkil edir ki, burada da elektron ehtiyatlarının bütün xarakteristikası əhatə edilir. Elektron ehtiyatların texniki xarakteristikası çoxcəhətli məna daşıyır.

Elektron ehtiyatların biblioqrafik təsviri ümumi elektron kataloqlarında verilə bilər. Lakin burada ənənəvi sənədlərin qeydləri də nəzərə alına bilər. Belə ki, elektron ehtiyatların struktur qeydləri ənənəvi kataloqlarda verilən təsvir ünsürlərinə uyğun gəlir.

`Elektron kitabxanaların öz xüsusi kataloqları olmalıdır, yeni yaranmaqda olan elektron kitabxanalarında xüsusi elektron kataloqları yaradılmalı, özünəməxsus axtarış sistemi təşkil edilməlidir. Bunlarsız elektron kataloqlarının istifadəsi yararsız olar, sadəcə kartoçkalar toplusuna çevrilə bilər. Elektron kitabxanalar üçün özünəməxsus xüsusi elektron kataloqları təşkil edilməlidir.

Elektron kataloqlar avtomatlaşdırılmış informasiya sisteminin (AİS) növlərindən biridir. İnformatikada "nə axtarırsan?" sualı tələbatçı anlayışında "informasiya" termini kimi işlənilir. İnformasiya tələbatı hər şeydən əvvəl məqsəd istiqaməti ilə fərqlənir. Burada konkret tələbatçıların informasiyaya olan peşəkar və şəxsi xarakteristikası nəzərə alınır və tələbatçının sorğusu formalaşdırılır. Təbii olaraq informasiya tələbatı mücərrəd şəkildə deyil, konkret formada yaranır. Bu da o vaxt baş verir ki, tələbatçı konkret sorğu ilə kitabxanaya müraciət edir. Oxucular burada informasiya mənbələrinə, ənənəvi və ya maşında yazılan mənbələrə müraciət edir, lazımi informasiyanı əldə etmək üçün axtarış sisteminə: kataloq kartoçkalarına, referativ məcmuələrə, avtomatlaşdırılmış informasiya sisteminə, xüsusi hallarda elektron kataloqlara müraciət edir. Burada ABŞ, Almaniya, Rusiya və digər ölkə kitabxanalarının təcrübəsi xüsusi diqqət cəlb edir.

Elektron kataloqlar ilə işləməyin bəzi ümumi qaydalarını nəzərdən keçirək.

Birinci. Tələbatçı ilk növbədə kitabxanada mövcud olan məlumat bazalarının həcmini, həmin bazada nə qədər biblioqrafik qeydlərin əhatə olunmasını, burada hansı növ sənədlərin əks etdirilməsini, bu prosesin hansı vaxtdan başlamasını, kataloqa daxil olan bütün sənədlərin əhatə olunmasını, kataloq kartoçkalarının tərtib edilməsini və onun elektron kataloqları ilə əlaqəli işlənməsini, kataloq kartoçkalarından istifadəetmə illərinin müəyyənləşdirilməsi, konkret bilik sahələrinin və ya tematik bölmələrin nəzərə alınmasını, sorğu-informasiyanın növlərini və onun axtarış sistemində istifadəsini bilməlidir.

İkinci. Elektron kataloqların ekranında axtarışlar ardıcıl aparılır və müxtəlif məlumatlar verilir. Əgər ekranda axtarışların sadalanma imkanı varsa, onda tələbatçı sadəcə olaraq ekranda göstərilən lazımi variantı seçir və informasiyanı əldə edir.

Üçüncü. Ekranda verilən xidmət-klavişinin dəstəyinin sətirlər, xətlər arasında hərəkəti yuxarı, aşağı istiqamətdə dəqiq təmin olunmalıdır.

Elektron kataloqların proqramı daxilində biblioqrafik təsvirin hər hansı iş prosesində axtarışını həyata keçirmək mümkündür. Burada sənədin rəf indeksini düzgün müəyyənləşdirmək lazımdır ki, sənədlərin və ya əlyazmalarının tələbatçılara çatdırılması mümkün olsun. Biblioqrafik təsviri əsas sayılan ünsürlər hesabına aparmaq daha əhəmiyyətlidir. Burada ən çox sənədin başlığı (müəllifi, tərtib edəni, toplayanı, işləyəni, tərcümə edəni, rəssamı və s.), kitabın sərlövhəsi, buraxılış məlumatları, beynəlxalq standart nömrəsi (İSBN) nəzərə alınır.

Sənədlərin axtarışı KBT, UOT cədvəlləri əsasında müəyyənləşdirilən şifrələr elektron kataloqlarda əks olunur. Burada şifrə elektron kataloqlarında əks olunur. Lakin yoxlamaq lazımdır ki, kataloqlarda göstərilən şifrələr elektron kataloqlarını təmin edirmi, oxucu tələbatını ödəməyə imkan verirmi? Son illərdə KBT-nin yenidən təkmilləşdirilməsi elektron kataloqların daha səmərəli tərtib olunmasına tam imkan verir. Məhz bu da respublikamızda kütləvi kitabxanalarda KBT cədvəli əsasında elektron kataloqların tərtib edilməsi və onların istifadəsini xeyli asanlaşdıracaqdır.

Sənədlərin tematik axtarışı və informasiyanın əldə edilməsi xüsusi əhəmiyyət kəsb edir. KBT əsasında tərtib edilmiş elektron kataloqlarda tematika üzrə aparılan axtarışlar mühüm əhəmiyyət kəsb edir və istənilən məqsədə nail olmaq mümkündür. Ümumiyyətlə, elektron kataloqlarda aşağıdakı rubrikalardan daha geniş istifadə edilir:

a) predmet rubrikaları

b) açarlı sözlər

c) kitabxana-biblioqrafiya təsnifatı (KBT, UOT, ABŞ konqres kitabxanasının təsnifatı və s.).

Respublika kitabxanalarında elektron kataloqların tətbiqi sorğu-informasiya prosesini səmərələşdirəcək və ən qiymətli sənədlərin əldə edilməsini və tələbatçılara çatdırılmasını sürətləndirəcəkdir.

Elektron kataloqlarda verilən təsvirlərdən bəzi nümunələrə nəzər yetirək.

Başlığa görə axtarış

Ələkbərov Urxan Kazım oğlu.

Biologiya: Bitkilər, bakteriyalar, göbələklər, şibyələr: 6-7-ci sinif: Ümumtəhsil məktəbləri üçün dərslik: / Yenidən işlənmiş və tamamlanmış 5-ci nəşri.-B.: Maarif, 2001.-288s.;23sm.-30000 nüsxə.

Seyidov Yusif.

Azərbaycan dili / Y.Seyidov və T.Əsədova: Ümumtəhsil məktəblərinin 8-9-cu sinifləri üçün dərslik; Red. N.Q.Cəfərov, Y.M.Seyidov.-B.: Çaşıoğlu,2003.-295s.;25sm. - 10000 nüsxə.

Xələfov Abuzər Alı oğlu

Kitabxanaşünaslığa giriş .-B., 2001.-398s.; 25sm.- Biblioqr.: s.392-394.-1000 nüsxə.

KBT 4730

Kitabxanaşünaslıq: (kitabxana kataloqları): "Kitabxanaşünaslıq" ixtisası üzrə təhsil alan ali məktəb tələbələri üçün dərs vəsaiti/ Red. A.A.Xələfov.-B.: Bakı Universiteti, 1996.-211s.;20sm.-3000 nüsxə.

KBT 47336.12.2

Quliyev Tacəddin.

Təbiətşünaslığa dair ədəbiyyatın təsviri, təsnifləşdirilməsi metodikası / T.Quliyev, M.Həsənov, A.Əliyev; Red. T.Quliyev.-B.,1997.-90 s.;19 sm.

KBT 4736.12.23

Sənədlərin biblioqrafik təsvir qaydaları haqqında / Tər. edənlər M.Həsənov, A.Abbasova; Red. İ.Qaracayev.- B.;1988.-47s.;21sm

KBT 4736.12.232

Şübhəsiz ki, yeni standarta görə göstərilən nümunələri elektron kataloqların tərtibində nəzərə almaq olar. Lakin respublikamızda hələ də elektron kataloqların təşkil olunmaması, onun tətbiqi imkanlarını xeyli çətinləşdirir. Doğrudur, bu sahədə bəzi elmi kitabxanalar (M.F.Axundov adına Azərbaycan Dövlət kitabxanası, Azərbaycan MEA Mərkəzi Elmi kitabxanası, Respublika Elmi-texniki kitabxanası, Bakı Dövlət Universitetinin Elmi kitabxanası müəyyən işlər görmüşlər. Xüsusən bu kitabxanaların internetə qoşulması böyük nailiyyətdir və elektron kataloqların yaranmasına müsbət təsir göstərəcəkdir.

**Tacəddin Quliyev,**
**tarix elmləri namizədi, dosent**
**Mayıl Həsənov,**
**tarix elmləri namizədi, dosent**